E-1493

Azərbaycan Respublikası
Standartlaşdırma, Metrologiya və Patent üzrə
Dövlət Komitəsi
Apellyasiya şurasının
Qərarı

Azərbaycan Respublikası Standartlaşdırma, Metrologiya və Patent üzrə
Dövlət Komitəsinin
Apellyasiya şurası

Z.T.Hacıyevin sədrliyi ilə,

üzvlər – N.F.Nəsibova, E.Ş.Qafarov,

etiraz verən iddiaçı ZAO "Korporasiya "Masternet" */ünvan: Rossiya, 129345, Moskva, ul. Magadanskaya, d.7/* nümayəndəsi patent müvəkkili M.Y.Qurbanovun,

qarşı tərəfin "STAYER IBERICA, S.A.," /*ünvan: Sierra de Cazorla, 7 -Area Empresarial Andalucia, Sector 1, E-28320 PINTO, MADRID (ES)/* nümayəndəsi patent müvəkkili V.F.Əfəndiyevin iştirakı ilə,

Z.T.Hacıyevin məruzəsilə etiraz üzrə işə baxaraq müəyyən etdi:

22.08.2016 il tarixdə "STAYER IBERICA, S.A.," şirkətinə məxsus olan "" adlı əmtəə nişanının 07-ci sinifin əmtəələri üzrə 878009 saylı qeydiyyatına qarşı ZAO "Korporasiya "Masternet" şirkətinin nümayəndəsi patent müvəkkili M.Y.Qurbanov tərəfindən "Əmtəə nişanları və coğrafi göstəricilər haqqında" Azərbaycan Respublikası Qanununun 30-cu maddəsində nəzərdə tutulmuş əsaslara görə Apellyasiya şurasına etiraz ərizəsi daxil olmuşdur.

Etiraz ərizəsi onunla əsaslandırılmışdır ki, iddiaçı ZAO "Korporasiya "Masternet" şirkətinə məlum olmuşdur ki, "STAYER IBERICA, S.A.," hüquqi şəxsin sahibi olduğu 878009 saylı beynəlxalq qeydiyyatla mühafizə olunan "" əmtəə nişanı 07-ci sinif əmtəələri üzrə Azərbaycan Respublikası ərazisində qeydə alındığı tarixdən fasiləsiz olaraq 5 il və ondan istifadə olunmaması barədə verilən bu ərizənin daxil olduğu tarixə qədər 5 il

ərzində istifadə olunmamışdır. Şərh olunanları nəzərə alaraq, "Əmtəə nişanları və coğrafi göstəricilər haqqında qanunun" 30-cu maddəsinin: *"Əmtəə nişanının qeydə alındığı tarixdən fasiləsiz olaraq 5 il və ya istənilən şəxsin ondan istifadə olunmaması barədə verdiyi ərizənin daxil olduğu tarixə qədər 5 il ərzində istifadə olunmadıqda müvafiq icra hakimiyyəti orqanının Apellyasiya şurası qeydiyyata xitam verə bilər"* əsaslanaraq 08.11.2005-ci il tarixdə beynəlxalq qeydiyyata alınmış 878009 saylı "" əmtəə nişanının 07-ci sinif əmtəələri üzrə qeydiyyatının etibarsız sayılaraq ona xitam verilməsi haqqında qərar verilməsini Apellyasiya şurasından xahiş etmişdir.

Apellyasiya şurasının iclası zamanı iddiaçının nümayəndəsi, patent müvəkkili M.Y.Qurbanov bildirmişdir ki, qarşı tərəflə uzun müddət razılıq əldə edilməsi üçün danışıqlar aparılmış, lakin heç bir nəticə əldə edilməmişdir. Etiraz ərizəsinin təmin edilməsini xahiş etmişdir.

Apellyasiya şurasının iclası zamanı qarşı tərəfin nümayəndəsi, patent müvəkkili V.F.Əfəndiyev bildirmişdir ki, qarşı tərəflə uzun müddət razılıq əldə edilməsi üçün danışıqlar aparılmış, lakin heç bir nəticə əldə edilməmişdir. Belə ki, IR No-li 878009 "STAYER" əmtəə nişanının sahibinin Azərbaycan bazarında istifadə etdiyi əmtəələrin siyahısı:

- qaynaq aparatları;
- elektrodlar;
- elektrik cərəyan gücləndiriciləri;
- elektrik enerji tənzimləyiciləri;
- qaynaq avadanlığı;
- 07-ci sinfə daxil edilmiş kəsici alətlər və aparatlar və bu qəbildən olan digər əmtəələr. Bu əmtəələr "kəsici və deşici" aparatlar kimi qəbul edilə bilər, lakin nişanın əhatə etdiyi əmtəələrinin siyahısında onlar birbaşa göstərilməmişdir. 878009 saylı "STAYER" əmtəə nişanı təqdim edilən sənədlərə uyğun olaraq bütün əmtəələr üzrə istifadə edilir. Göstərilənləri nəzərə alaraq etiraz ərizəsinin təmin edilməməsini xahiş etmişdir.

Apellyasiya şurası etiraz ərizəsinə baxaraq, etiraz üzrə məruzəni, etiraz edən iddiaçının nümayəndəsi, patent müvəkkili M.Y.Qurbanovun və qarşı tərəfin nümayəndəsi, patent müvəkkili V.F.Əfəndiyevin çıxışlarını dinləyib, hesab edir ki, etiraz təmin olunmalıdır.

Apellyasiya şurası etirazla tanış olduqdan sonra ona aid 16011720206 saylı 16.11.2016 il tarixli məktubu "STAYER IBERICA, S.A.," şirkətinin ünvanına göndərmişdir. Məktub "STAYER IBERICA, S.A.," şirkətinə çatdırılmışdır.

Apellyasiya şurası müəyyən etdi ki, "" adlı əmtəə nişanı 07-cı sinifin əmtəələri üzrə 878009 nömrəsi altında 08.11.2005 il tarixdə "STAYER IBERICA, S.A.," (ES) adına beynəlxalq qeydiyyata alınmışdır. Həmin əmtəə nişanının qeydiyyatı 19.10.2006 il tarixdə Azərbaycan Respublikası ərazisinə şamil edilmişdir (2011/37 Gaz).

Apellyasiya şurası qeyd etdi ki, "Əmtəə nişanları və coğrafi göstəricilər haqqında" Azərbaycan Respublikası Qanununun 26-cı maddəsinə əsasən, əmtəə nişanının istifadəsi kimi aşağıdakılar hesab edilir: *"Əmtəə nişanının və coğrafi göstəricinin, bir qayda olaraq, onların aid edildiyi əmtəələrdə, əmtəə qablarında və göstərilən xidmətlərdə tətbiqi onlardan istifadə sayılır. Onların reklamlarda, mətbu nəşrlərdə, lövhələrdə, Azərbaycan Respublikasında keçirilən sərgilərin və yarmarkaların eksponatlarında və əmtəələrin bazara çıxarılması ilə bağlı digər sənədlərdə tətbiqi də istifadə sayılır.*

*Yuxarıda sadalan hallarda istifadə məqsədilə əmtəənin istehsalı, anbara yığılması, bazara çıxarılması, idxalı, ixracı da nişandan istifadə sayılır.*

*Əmtəənin satış üçün təklif olunması, satışı və ya xidmətin göstərilməsi qeydə alınmış nişanlardan istifadəni təsdiq edir.*

*Əmtəə nişanından istifadənin onun sahibi və ya bu Qanunun 28-ci maddəsinə uyğun olaraq lisenziya müqaviləsi əsasında istifadə hüququ olan şəxs tərəfindən həyata keçirilməsi əmtəə nişanından istifadə sayılır.*

*Əmtəə istehsalçısının və ya xidmət göstərənin əmtəə nişanı ilə yanaşı olaraq, aralarındakı müqaviləyə uyğun vasitəçilik fəaliyyəti ilə məşğul olan hüquqi və fiziki şəxslər özlərinə məxsus əmtəə nişanından da istifadə edə bilərlər.”*

“Əmtəə nişanları və coğrafi göstəricilər haqqında” Azərbaycan Respublikası Qanununun 30-cu maddəsində qeyd edilmişdir ki, “Əmtəə nişanından istifadə halının sübutu əmtəə nişanının sahibinin üzərinə düşür”.

Apellyasiya şurasında etiraz ərizəsinə baxılan zaman qarşı tərəfin nümayəndəsi, patent müvəkkili V.F.Əfəndiyev tərəfindən “ ” adlı əmtəə nişanının 07-cı sinifin əmtəələri üzrə Azərbaycan Respublikası ərazisində istifadə edilməsini təsdiqləyən 05.08.2014-cü il tarixli, 30.10.2014-cü il tarixli, 30.06.2015-ci il tarixli hesab-fakturalar, “Santral Elektrik LTD” və “STAYER IBERICA, S.A.,” şirkəti arasında bağlanmış 01.08.2014-cü il tarixli distribüter müqaviləsi və s. sənədlər təqdim edilmişdir.

Apellyasiya şurası müəyyən etdi ki, təqdim olunan sübutlar “ ” adlı əmtəə nişanının 07-cı sinifin əmtəələri siyahısına aid deyil və onun 878009 saylı beynəlxalq qeydiyyatının Azərbaycan Respublikası ərazisində istifadə edilməsini sübut etmir.

Etiraz ərizənin daxil olduğu tarixə qədər 5 il ərzində “ ” adlı əmtəə nişanının 07-ci sinifin əmtəələri üzrə istifadə olunması ilə bağlı sübutlar “STAYER IBERICA, S.A.,” şirkəti tərəfindən Apellyasiya şurasına təqdim edilməmişdir.

“Əmtəə nişanları və coğrafi göstəricilər haqqında” Azərbaycan Respublikası Qanununun 30-cu maddəsinin 1-ci hissəsinin “Əmtəə nişanının ... istənilən şəxsin ondan istifadə olunmaması barədə verdiyi ərizənin daxil olduğu tarixə qədər 5 il ərzində istifadə olunmadıqda müvafiq icra hakimiyyəti orqanının Apellyasiya şurası qeydiyyata xitam verə bilər” əsaslanaraq Apellyasiya şurası hesab edir ki, “ ” adlı əmtəə nişanının 07-ci sinifin əmtəələri üzrə qeydiyyatına xitam verilə bilər.

Şərh edilənlərə əsasən və “Əmtəə nişanları və coğrafi göstəricilər haqqında” Azərbaycan Respublikası Qanununun 26-cı, 28-ci və 30-cu maddələrini rəhbər tutaraq, Apellyasiya şurası

Qərara aldı:

1. “ ” adlı əmtəə nişanının 07-ci sinifin əmtəələri üzrə 878009 saylı beynəlxalq qeydiyyatına qarşı ZAO “Korporasiya “Masternet” şirkətinin nümayəndəsi, patent müvəkkili M.Y.Qurbanov tərəfindən verilmiş etiraz ərizəsi əsaslı hesab edilsin və təmin olunsun.

2. “ ” adlı əmtəə nişanının 07-ci sinifin əmtəələri ilə bağlı 878009 saylı beynəlxalq qeydiyyatına Azərbaycan Respublikası üzrə xitam verilsin.

3. Bu qərardan Azərbaycan Respublikasının İnzibati Prossesual Məcəlləsi ilə müəyyən edilmiş qaydada məhkəməyə şikayət verilə bilər.

| | |
|---|---|
| Apellyasiya şurasının sədri | Z.T.Hacıyev |
| Üzvləri: | N.F.Nəsibova |
| | E.Ş.Qafarov |